

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 117 (21.269)

*16 iyun 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı-2015" birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından birinci Avropa Oyunları ilə bağlı Olimpiya Ailəsinin üzvləri üçün qəbul təşkil edilib.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri qəbulda iştirak ediblər.

Qəbul birinci Avropa Oyunlarının açılışından bəhs edən videoçarxın nümayişi ilə başlayıb.

Dövlətimizin başçısı mərasimdə çıxış edib.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki də mərasimdə çıxış edib.

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsindəki xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim edib.

* * *

İyunun 15-də Heydər Əliyev adına İdman Sarayında "Bakı-2015" birinci Avropa Oyunları çərçivəsində qadınlar arasında sərbəst güləş yarışları keçirilib.

Millimizin üzvü Mariya Stadnik bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva final qarşılaşmasını izləyiblər.




## Naxçıvanda "Qurtuluş dastanı" tamaşasına baxış olmuşdur





İyunun 15-də – Milli Qurtuluş Günündə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında İftixar Piriyevin "Qurtuluş dastanı" epik tarixi dramı əsasında hazırlanmış eyniadlı tamaşaya baxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tamaşanı izləmişdir.

Tamaşa başlanmazdan əvvəl Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev çıxış edərək demişdir ki, bu gün Azərbaycan xalqının iftixar günü – Milli Qurtuluş Günüdür. Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. Həmin gün müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. O dövrdən keçən qısa zaman kəsiyində ölkəmiz yüksək inkişaf yolu keçmiş, bütün sahələrdə böyük uğurlar qazanılmış, Azərbaycan dünya dövlətləri sırasında layiqli yerini tutmuşdur. Bu inkişafa görə xalqımız dünya şöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevə minnətdardır.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik hərəkatı milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılması ilə yadda qalıb. Ölkəmizin uçuruma sürükləndiyi bir vaxtda xalq yeganə xilas yolunu ümummilli liderimizin böyük siyasətə qayıdışında tapdı. Qurtuluş günü sayəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas oldu. Bu gün müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial, iqtisadi, siyasi, mədəni həyatın bütün sahələrində uğurlar qazanılır, Azərbaycan gündən-günə inkişaf edir, yüksəlir.

Rza Xudiyev qeyd etmişdir ki, ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mədəniyyət sahəsi də diqqət və qayğı ilə əhatə olunmuş, ədəbiyyatımız inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Heydər Əliyev dühasının



ölkəmizə bəxş etdiyi yüksək tərəqqi şair və yazıçılarımızın yaradıcılıqlarının əsas istiqamətini təşkil edir. İftixar Piriyevin "Qurtuluş dastanı" əsəri dahi şəxsiyyətin mənalı ömür yoluna və çoxşaxəli fəaliyyətinə həsr olunub.

"Qurtuluş dastanı" pyesinin müəllifi, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İftixar Piriyev çıxış edərək demişdir ki, Milli Qurtuluş Günü Azərbaycan xalqının həyatında və dövlətçilik tarixində mühüm bir mərhələ təşkil edir. Bugünkü müstəqil və qüdrətli Azərbaycanın əsası 15 İyun Milli Qurtuluş Günündən başlayır. Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu qurtuluş siyasəti bu gün Azərbaycanı sürətli inkişaf yoluna çıxartmışdır. Ölkəmizin bütün bölgələrində, eləcə də onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasında əldə olunan inkişaf, qazanılan nailiyyətlər Milli Qurtuluşdan başlanan yolun davamı, eləcə də ümummilli lider Heydər Əliyev siyasətinə sədaqətin bəhrəsidir. Bu gün muxtar respublikada bütün sahələr inkişaf etdirilir. Bu inkişaf və tərəqqini qələmə almaq, onun bədii ifadəsini yaratmaq isə böyük məsuliyyət tələb edir. İftixar Piriyev "Qurtuluş dastanı" əsərinin Naxçıvan teatrında səhnəyə qoyulmasına görə minnətdarlıq etmişdir.

Sonra "Qurtuluş dastanı" tamaşasına baxış olmuşdur.

Tamaşada ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Moskva, Naxçıvan və Bakı dövrlərini əhatə edən müxtəlif məqamlara müraciət olunmuşdur. İkihissəli epik tarixi dram Milli Qurtuluş Günündə ulu öndərin əziz xatirəsinə ehtiram əlaməti olaraq səhnəyə qoyulmuşdur. Tamaşada ümummilli liderimizin bədii obrazının səhnə təcəssümü öz ifadəsini uğurla tapmışdır. Dahi şəxsiyyətin zəngin həyat yolunun müxtəlif məqamları, habelə böyük liderin ayrı-ayrı hadisələrə münasibəti, kollektivin yaratdığı canlı səhnələr alqışlarla qarşılanmışdır.

Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşada xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Həsən Ağasoy, Şirzad Abutalıbov, Azərbaycan Respublikasının Əməkdar artistləri Əli Əliyev, Əbülfəz İmanov, Xəlil Hüseynov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev, aktyorlardan Elnur Rzayev, Şölə Novruzbəyli, Zəminə Baxşəliyeva və digərləri öz ifaları ilə uğurlu səhnə həllinə nail olmuşlar.

Ulu öndər Heydər Əliyevin öz həyatını təhlükə altına ataraq 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlməsi və orada Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi qanlı faciə ilə bağlı mətbuat konfransı keçirməsi, iyulun 20-də Bakıya yola düşməsi, iki gün sonra anadan olduğu Naxçıvana yollanması, orada fəaliyyət göstərməsi, ölkə ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana gəlməsi və xalqın təkidli tələbi ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə yenidən qayıtması tamaşada öz parlaq ifadəsini tapmışdır. Əsərin finalında aktyorların müəllifin "Müstəqil vətənin memarı" rekviyem-poemasını söyləməsi qurtuluşa stimul olan, qurtuluşun mahiyyətini özündə təcəssüm etdirən milli birliyin rəmzi kimi təqdim edilmişdir.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri 15 İyun – Milli Qurtuluş Günü münasibətilə teatrın kollektivini təbrik edərək demişdir: “Qurtuluş dastanı” tamaşasının uğurlu nümayişi bir daha göstərdi ki, Naxçıvan teatrının kollektivi səhnə tərtibatı və quruluşundan asılı olmayaraq istənilən əsəri tamaşaya qoymaq gücündədir. O əsərin səhnə həlli uğurlu olur ki, orada aktyor və rejissor işi uğurlu olsun. “Qurtuluş dastanı” əsərinin həm bədii səviyyəsinin, həm də səhnə həllinin yüksək olması onun uğurlu alınmasında başlıca amildir. Aktyorların hər səhnəyə uyğun hiss və həyəcanları tamaşaçıya çatdırması, eləcə də düzgün aktyor seçimi kollektivin peşəkarlığından xəbər verir. Artıq “Qurtuluş dastanı” tamaşasının nümayişi ilə Naxçıvan teatrının salnaməsinə möhtəşəm bir əsər daxil oldu. Tarix rəsmi sənədlərdə bədii əsərlərdə olduğu kimi uzun müddət yaşaya bilmir. Müəllif “Qurtuluş dastanı”nda Azərbaycan tarixinin mühüm bir dövrünün bədii ifadəsini yaradaraq əbədiləşdirmişdir.

Ali Məclisin Sədri demişdir: Azərbaycanın bugünkü inkişafına, dövlət müstəqilliyimizin əbədi olmasına, bütün sahələrdə qazanılan nailiyyətlərə görə xalqımız Milli Qurtuluş Gününə borcludur. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsi, bu siyasətə sədaqət Azərbaycanı daha böyük inkişafa qovuşdurur. İyunun 12-də Azərbaycanda ilk Avropa Oyunlarının açılış mərasimi keçirildi. Bu mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi də Milli Qurtuluş Gününün bəhrəsidir.

Ali Məclisin Sədri müəllifə və teatrın kollektivinə təşəkkür etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

“Qurtuluş dastanı” epik tarixi dramının müəllifi, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İftixar Piriyev və teatrın kollektivi yaradıcı insanlara göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində “Biz 15 iyunun yaşıdlarıyıq” devizi ilə yürüş keçirilmişdir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Tədbirlər Planına əsasən 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Naxçıvan şəhərində “Biz 15 iyunun yaşıdlarıyıq” devizi altında yürüş keçirilmişdir.*

Yürüşdən əvvəl ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulmuşdur.

Əlahiddə Ümumqoşun Ordusunun, “Naxçıvan” Sərhəd Diviziyasının, Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının nümunəvi bölmələrinin əsgərlərindən, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Təhsil, Gənclər və İdman nazirliklərinin gənc fəalları və Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına



Gənclər Birliyinin üzvlərindən ibarət dəstələr Heydər Əliyev Muzeyinin önündən başlayaraq Heydər Əliyev Sarayına qədər olan məsafəni və geri – Heydər Əliyev Muzeyinə qədər olan yolu təntənəli marş sədaları altında nizami addımlarla qət etmişlər.

Ümummilli liderin ali hakimiyyətə qayıdışı ilə tarixə yazılmış Milli Qurtuluş Günü Azərbaycanı güclü əsaslara söykənən davamlı sosial-iqtisadi inkişaf yoluna çıxarmış, vətənimizi qorumağa qadir olan güclü ordumuz yaranmış, Azərbaycan xalqının bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edilmiş, vətəninə və dövlətinə sadiq gənclik yetişmişdir. Ümummilli liderimiz Heydər Əliyev milli qurtuluşun mükəmməl fəlsəfəsini yaratmış və onu müstəqil Azərbaycanın gələcək müqəddəratına çevirmişdir. Azərbaycan tarixinin 1969-cu ildən başlanan intibah dövrü 1993-cü ilin 15 iyununda özünün Milli Qurtuluş mərhələsinə yüksəlmişdir. Bu qurtuluşa Naxçıvandan hazırlanan zəmin isə müstəqil dövlətçilik tariximizin mühüm mərhələsini təşkil edir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünün inkişaf və intibah dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar da Milli Qurtuluşdan başlanan inkişafın davamıdır. Muxtar respublika gəncliyi ulu öndər Heydər Əliyevin ideyalarına sədaqət ruhunda tərbiyə olunur, əsl vətəndaş kimi yetişir. Gənc nəslin təhsili, tərbiyəsi və sağlamlığının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilir.

Hərbi Orkestrin ifa etdiyi marşların sədaları altında keçirilən yürüşdə zəkası və bacarığı ilə müstəqil Azərbaycanın işıqlı gələcəyini, onun inkişafını təmin edəcək gəncliyin sabaha olan inamı addımlayırdı.

Yürüş şəhər sakinləri tərəfindən alqışlarla qarşılanmışdır.

**“Şərq qapısı”**

## Milli Qurtuluş Günü münasibətilə bayram konsertləri

### *Şərur rayonu*




Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonuna da Milli Qurtuluş Günü ilə başlayan inkişaf və intibah proseslərindən xeyli pay düşüb. Rayon mərkəzi, ən ucqar dağ və sərhəd kəndləri neçə illərdir, inkişafın yeni mərhələsini yaşayır. Həyatın bütün sahələrini əhatə edən yeniləşmə prosesi bölgəni gözəlliklər məskəninə, füsunkar bir yurd yerinə çevirib. Hər gün bir yeniliyin şahidi olan rayon sakinləri görülən işləri onlara göstərilən hərtərəfli qayğı kimi dəyərləndirir, bu qayğıya əməli işləri ilə cavab verməyə səy göstərirlər. Çünki quruculuq tədbirləri artdıqca insanlar bir vaxtlar xəyallarına belə gətirmədikləri gözəllikləri görürlər.

Qeyd etmək lazımdır ki, Şərurda quruculuq tədbirlərinə hələ ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-ci illərindən başlanılıb. Ulu öndərimizin bilavasitə rəhbərliyi ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan verib. Rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə reallaşan belə tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Görkəmli dövlət xadimi Heydər Əliyev bu bölgəyə səfərlərinin birində deyib: ***“Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz”.***

Rayon sakini Mirabdulla Seyidovla Milli Qurtuluş Günü münasibətilə Şərur şəhərində keçirilən bayram tədbirində həmsöhbət olduq. O bildirdi ki, ulu öndərin arzuları muxtar respublikanın hər bir bölgəsində olduğu kimi, qədim Şərur torpağında da reallığa çevrilib. Hər il rayon mərkəzində, kənd yaşayış məntəqələrində quruculuq tədbirləri həyata keçirilir. Bu tədbirlər artıq davamlı xarakter alıb. Mirabdulla Seyidov rayon sakinləri adından minnətdarlığını bildirərək onu da vurğuladı ki, bütün bunlar müəllifi xalqımızın böyük oğlu Heydər Əliyev olan Milli Qurtuluşun Şərura ərməğanlarıdır.

Rayonun Axaməd kənd tam orta məktəbinin müəllimi Kamil Aşurov da bu bayram günündə minnətdarlıq hislərini ifadə etdi. Dedi ki, bu gün muxtar respublikada çox geniş vüsət alan quruculuq tədbirləri həm sosial-iqtisadi inkişafımızın, həm də insanlara göstərilən qayğının ifadəsidir. Rayonumuzda hər il kompleks quruculuq tədbirlərinin aparılması hamımızı ürəkdən sevindirir. Həyata keçirilən belə genişmiqyaslı quruculuq işləri insanların qurub-yaratmaq əzmini daha da yüksəldir.

Məlumat üçün bildirək ki, son 20 ildə rayonda həyata keçirilən quruculuq tədbirlərinin həcmi çox böyükdür. Ona görə də onları adbaad sadalamaq mümkün deyil. Qeyd olunan dövrdə rayonda 1 şəhər və 32 kənd mərkəzi, kənd yaşayış məntəqələrində 40 məktəb binası, Təhsil Şöbəsi, məktəbdənkənar müəssisələr, uşaq bağçası, texniki-peşə və sürücülük məktəbi, rayon Mərkəzi Xəstəxanası, Aralıq Kənd Sahə Xəstəxanası, 33 kənd yaşayış məntəqəsində səhiyyə ocaqları, Şərur Rayon Mədəniyyət Evi, Bahar kinoteatrı, Cəlil Məmmədquluzadənin Cəlilkənddə Xatirə muzeyi, Şərur Şəhər Uşaq İncəsənət məktəbi, 2 kənd uşaq musiqi məktəbi, 33 kənd mədəniyyət müəssisəsi, rayon Rabitə İdarəsi üçün yeni binalar tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib. Belə qayğıdan rayonun digər idarə, müəssisə və təşkilatlarına da pay düşüb. Həmin müəssisələrdə müasir iş şəraiti yaradılıb. Rayondaxili yolların müasirliyinə söz ola bilməz. Cari ildə quruculuq tədbirlərinin həcmi bir qədər də artıb. Həm rayon mərkəzində, həm də kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı obyektlərin tikintisi sürətlə davam etdirilir. Belə ki, hazırda Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün nəzərdə tutulmuş bina və yataqxana yenidən qurulur.

Rayonun Kürçülü, Axaməd, Oğlanqala, Yuxarı Yaycı kəndlərində yeni sosial obyektlər inşa olunur. Adıçəkilən yaşayış məntəqələri də qısa vaxt ərzində bölgənin müasir kəndləri sırasına qoşulacaq.

Rayonda 15 İyun – Milli Qurtuluş Günü böyük təntənə ilə qeyd olunub. Bu əlamətdar gün münasibətilə konsert proqramı təşkil edilib. Bakıdan dəvət olunmuş muğam müsabiqəsi qalibləri Ehtiram Hüseynovun, Nigar Şabanovanın, müxtəlif müsabiqələr iştirakçısı Tamara Muradovanın, rayonda fəaliyyət göstərən musiqi kollektivlərinin və “Yallı” ansambllarının ifaları şərurlular tərəfindən böyük alqışlarla qarşılanıb.

**✍ Sara ƏZİMOVA**

### *Babək rayonu*



Ulu öndərimizin müstəqil Azərbaycan naminə göstərdiyi xidmətlər tariximizin parlaq səhifələrindən biri kimi xalqın hafizəsində yaşayır. Bu səhifələrdən biri də xalq qəhrəmanı Babəkin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi xalq qəhrəmanının adını daşıyan rayonun yaradılmasında, bu qəhrəman haqqında film çəkilməsində, işğalçılara qarşı uzun illər mübarizə aparmış sərkərdənin əzəmətli abidəsinin ucaldılmasında təşəbbüskarlığı ilə onu ölməzliyə qovuşdurdu, əbədiləşdirdi. Bu işlərlə xalqına, millətinə bir daha çatdırdı ki, bu xalqın şanlı tarixi keçmişi, görkəmli sərkərdələri var. Maraqlı məqam bundan ibarətdir ki, bu işlər sovet ideoloji maşınının hərəkət mənbələrinin ən işlək zamanlarında göründü, özü də Naxçıvanda göründü. Müdrik rəhbər öz uzaqgörənliyi ilə hələ o zaman hiss etmişdi ki, gec-tez bu xalq azadlığını əldə edəcək, özü də bu hərəkat Naxçıvandan başlanacaq. Elə də oldu. Azərbaycanda azadlıq hərəkatına Naxçıvandan başlandı, xalq qarşısına çəkilən tikanlı divarları yıxdı, azadlığını, müstəqil yaşamaq haqqını əldə etdi. İllər keçdi, ulu öndər Heydər Əliyevin yadigarı olan Babək rayonu da çiçəkləndi, inkişaf etdi. Qədirbilən rayon sakinləri onun ideyalarına, amallarına sədaqət nümayiş etdirdilər və bu gün də etdirirlər. Babəklilər onu da sübut etdilər ki, xalq-dövlət birliyi sarsılmazdır və nə qədər ki bu birlik var, muxtar respublikanın bütün bölgələri kimi, Babək rayonu da intibaha gedən yolda qətiyyətlə addımlayacaq.

İyunun 15-də rayon ictimaiyyətinin toplaşdığı bayram tədbirində həmsöhbət olduğumuz rayon sakinlərindən Füzuli Salmanov bildirdi ki, Babək rayonunun yaradılmasından 37 il keçir. Naxçıvan Muxtar Respublikasında yeni rayonun təşkil olunması ideyası ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, Azərbaycanın dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxmışdır. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş yeni rayona mərkəzi hakimiyyətin iradəsinin əksinə olaraq Babək adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.

Rayon sakinlərindən Vaqif Hüseynov isə dedi ki, 15 iyun 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi ilə ölkəmiz, eləcə də muxtar respublika, onun böyük potensiala malik Babək rayonu davamlı inkişaf yoluna qədəm qoydu. Ötən müddətdə rayonda bütün sahələrdə quruculuq tədbirləri geniş miqyasda, qətiyyətlə və ardıcıllıqla həyata keçirildi. Görülən işlər muxtar respublika Ali Məclisi Sədrinin Naxçıvanın bölgələrinin inkişafı naminə həyata keçirdiyi düşünülmüş, məqsədyönlü, ardıcıl fəaliyyətinin nəticəsi, milli qurtuluşun yaratdığı imkanlardan maksimum şəkildə yararlanmağın bəhrəsidir. Muxtar respublika rəhbərinin diqqət və himayəsilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı tədbirlərin əsasında isə müdrik İnsanın ideyaları, arzuları dayanırdı. Bu gün Milli Qurtuluşun şəfəqləri Babək rayonunu da öz nuruna qərq edir, intibah yolunda qətiyyətlə addımlamağa sövq edir.

Həmin gün Babək qəsəbəsində Milli Qurtuluş Günü münasibətilə təşkil olunan konsertdə Azərbaycan Respublikasının Əməkdar artisti Aybəniz Haşımovanın, həmçinin müğənni Sədaqət Ulduzun ifasında ulu öndərimizə, onun işıqlı ideyalarına, vətənimiz Azərbaycana, müstəqilliyimizə, xalqımızın şanlı tarixinə, yurdumuzun gözəlliklərinə həsr olunan mahnılar səsləndirilib. Babək Rayon Mədəniyyət Evinin “Zabul” instrumental ansamblının müşayiətilə ansamblın solistlərindən Samir İsmayılovun, Mais Əliyevin ifasında səslənən şux mahnılar konsert iştirakçılarına xoş ovqat bəxş edib.

**✍ Səbuhi HÜSEYNOV**

*Ardı 3-cü səhifədə*

## Ordubad rayonu



Ordubad şəhərində Milli Qurtuluş Gününə həsr olunmuş bayram tədbirində görüşüb həmsöhbət olduğum rayon ziyalısı Əkbər Babazadə bildirdi ki, ümummilli liderimiz Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad rayonunun Milli Qurtuluş Günündən ötən dövr ərzində keçdiyi böyük inkişaf yolunu gözlərimiz önünə gətirəndə təəccübümüzü gizlədə bilmirik. Çünki 22 illik kiçik bir zaman kəsiyində bölgə on illərə bərabər yol qət edib. Rayonun iqtisadiyyatı inkişaf etdirilib, bölgədə yeni iş yerləri yaradılıb, insan amilinə xidmət edən digər məqsədyönlü tədbirlər həyata keçirilib. Tarixən zəngin fauna və floraya, mədəni abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması ulu öndər Heydər Əliyevin bağlar diyarına böyük qayğısının ifadəsi kimi dəyərləndirilir.

Vənənd kənd tam orta məktəbinin direktoru Elxan Hüseynli söhbətə qoşulur. Deyir ki, 22 il ərzində bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, bu yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər qədim yurd yerinə yeni görkəm gətirib. Aparılan məqsədyönlü tədbirlər insanların həyata baxışlarını da dəyişib. Bir sözlə, Ordubad tarixiliyini saxlamaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib. Bu gün rayon sakinləri dərindən dərk edirlər ki, bütün bunlar Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev yoluna sədaqətin və ehtiramın ifadəsi hesabınadır. Odur ki, xalqımızın dahi oğlu rayon sakinləri tərəfindən daim minnətdarlıqla, böyük sevgi hissləri ilə xatırlanır, Onun xatirəsi əziz tutulur.

İyun ayının 15-də bu hisslər bir daha yaşandı.

Rayon mərkəzində Milli Qurtuluş Günü münasibətilə keçirilən bayram konsertindən əvvəl qeyd edildi ki, 1993-cü ilin 15 iyununa qədər Azərbaycan formal olaraq müstəqil dövlət idisə, həmin tarixdən sonra real müstəqilliyin əsası qoyuldu, Azərbaycan qüdrətli dövlətə çevrildi.

Konsert proqramında rayon Mədəniyyət Evinin “Dübəndi” instrumental ansamblının və rayonun mədəniyyət müəssisələrində fəaliyyət göstərən musiqi kollektivləri üzvlərinin ifasında bir-birindən rəngarəng mahnılar ifa olundu, tamaşaçılara rəqslər təqdim edildi.

✍ **Muxtar MƏMMƏDOV**

## Culfa rayonu



İyunun 15-də Culfa rayonunda da Milli Qurtuluş Günü qeyd olunmuşdur.

Axşam saatlarında təşkil edilən konsert proqramında tədbirin aparıcısı rayon sakinlərini bayram münasibətilə təbrik edərək qeyd etmişdir ki, 1991-ci ildə Azərbaycan xalqı illərboyu ürəyində yaşatdığı azadlıq, müstəqillik arzusuna çatdı. Lakin çox keçmədi ki, müstəqillik duyğusunun yaratdığı sevincin yerini iztirab, narahatlıq tutdu, ölkəmiz ağır sınaqlarla üzləşdi. Həmin dövrdə Azərbaycana rəhbərlik edən şəxslərin düşünülməmiş siyasəti, səriştəsizliyi və bacarıqsızlığı yenicə müstəqillik qazanmış gənc respublikanı uçuruma sürükləyirdi. 1991-1993-cü illərdə ölkəmizdə yaranmış anarxiya və xaos, hadisələrin sonrakı gedişatı sübut etdi ki, yalnız xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanı bu bəladan xilas edə və xalqımızın yenidən əldə etdiyi müstəqilliyini yaşada bilər. 1993-cü ilin iyun ayında Azərbaycanda böhranlı vəziyyət son həddə çatmışdı. İstər daxili, istərsə də xarici siyasətdə yol verilmiş nöqsanlar, son nəticədə, ölkəni gərgin, fəlakətli bir vəziyyətə salmışdı. Belə bir ağır, taleyüklü məqamda xalqımız siyasi müdriklik və əsl uzaqgörənlik nümayiş etdirərək yeganə xilaskarına, görkəmli dövlət xadimi Heydər Əliyevə üz tutdu, ulu öndərimizi təkidlə hakimiyyətə dəvət etdi.

Ulu öndərimiz müstəqil Azərbaycana rəhbərlik etdiyi on il müddətində əsrlərə sığmayan böyük işlər görmüş, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi bərqərar edilmiş, milli Konstitusiyamız qəbul olunmuş, Azərbaycan sürətli inkişaf və tərəqqi yoluna çıxmışdır. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir, yeni-yeni uğurlara imza atır. Ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Artıq Azərbaycan iqtisadi inkişaf tempinə görə lider dövlətə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçmişdir. Həyata keçirilən sosial-iqtisadi islahatlar, reallaşdırılan böyük layihələr muxtar respublikamızı tərəqqiyə qovuşdurmuşdur.

Bayram tədbirində bir neçə culfalı ilə həmsöhbət olduq. Culfa şəhərindəki Uşaq musiqi məktəbinin müəllimi Tahir Səmədov bildirdi ki, muxtar respublikamızın ayrı-ayrı bölgələrində olduğu kimi, Culfa rayonunda da genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilmiş, yeni sosial obyektlər həyata vəsiqə almışdır. 26 ümumtəhsil məktəbinin fəaliyyət göstərdiyi rayonda 21 orta məktəb binası, 1 uşaq bağçası, Şahmat məktəbi, 4 məktəbdənkənar müəssisəsi üçün müasir tələblərə cavab verən yeni binalar tikilib istifadəyə verilmişdir. Rayon mərkəzini ucqar dağ və sərhəd kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri və yenidən qurulması da diqqət mərkəzində saxlanılmış, ümumi uzunluğu 57 kilometr olan Çeşməbasar-Boyəhməd avtomobil yolu yenidən qurularaq istifadəyə verilmiş, kənddaxili və kəndarası avtomobil yollarında əsaslı təmir işləri aparılmış, rayon sakinlərinin rahatlığı təmin olunmuşdur. Daxili bazarın yerli məhsullarla təmin olunmasında mühüm rol oynayan kiçik və orta sahibkarlığın inkişafına əlverişli şərait yaradılmış, əhalinin məşğulluğu təmin olunmuş, maddi rifahının daha da yaxşılaşmasına geniş imkanlar açılmışdır. Bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir.

Bayram konsertində Azərbaycan Respublikasının Xalq artisti Gülyaz Məmmədovanın, Culfa rayonundakı mədəniyyət müəssisələrinin musiqi kollektivlərinin çıxışları alqışlarla qarşılanmışdır.

✍ **Kərəm HƏSƏNOV**

## Kəngərli rayonu



Kəngərli rayonu 11 il bundan əvvəl, 2004-cü il martın 19-da təşkil edilib. Bir hissəsi Şərur rayonunun, digər hissəsi isə Babək rayonunun ərazilərinə aid olan bu qədim kəngərlilər yurdunun sakinləri muxtar respublikanın ərazi bütövlüyünün qorunmasında fəal iştirak edib, ümummilli lider Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə böyük şəxsiyyətin ideyalarının həyata keçirilməsinə öz töhfələrini veriblər. 1995-ci ildən başlayaraq muxtar respublikada aparılan islahatlar regionda ərazi idarəetmə strukturlarının da təkmilləşdirilməsinə öz təsirini göstərib və nəticədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalaması ilə Kəngərli rayonu təşkil edilib. Qanuna görə, Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz, Çalxanqala, Xıncab, Şərur rayonunun isə Qarabağlar, Xok, Qıvraq, Qabıllı, Şahtaxtı, Yurdçu və Yeni Kərki kəndlərini əhatə edən ərazi vahidləri bu rayona daxil edilib. Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrilib.

Rayonun Qarabağlar kənd 2 nömrəli tam orta məktəbinin müəllimi, “İlin müəllimi” müsabiqəsinin qalibi Məhəddin Kazımov deyir ki, burada rayon yaradılmamışdan əvvəl indiki Qıvraq qəsəbəsi Qıvraq kəndindən, bir də ki kəndin şimal hissəsində yerləşən boş və quru çöllük ərazilərdən ibarət idi. O zaman çoxları bu ərazinin gözəl bir rayon mərkəzinə çevriləcəyini təsəvvür edə bilmirdi. Hətta burada hər hansı bir infrastrukturun yaradılmasının mümkünsüzlüyünü düşünənlər də vardı. Ancaq Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi qısa bir zamanda Kəngərli rayonunu gözəlliklər diyarına çevirdi. Ötən dövr ərzində burada rayon mərkəzi üçün tələb olunan bütün layihələr həyata keçirildi, təhsil, mədəniyyət, səhiyyə obyektləri tikildi, idarəetmə orqanları üçün yeni inzibati binalar istifadəyə verildi. Həmin ünvanlarda müasir iş şəraiti təmin olundu. Həyata keçirilən belə tədbirlər Kəngərli sakinlərinin məşğulluq probleminə də öz müsbət təsirini göstərdi. Bu gün rayon sakinləri qovuşduqları xoş günlərin təməlində məhz Milli Qurtuluş Gününün dayandığını dərindən dərk edir, öz əməli fəaliyyətləri ilə müstəqilliyimizin, dövlətçiliyimizin qorunmasına töhfələrini verirlər.

Milli Qurtuluş Günü münasibətilə Kəngərli rayonunun mərkəzi Qıvraq qəsəbəsində təşkil olunan konsertdə həmsöhbət olduğumuz insanların hamısı belə minnətdarlıqla danışdı. Konsertdə tanınmış müğənni Vüsal Əliyevin, müxtəlif müsabiqələrin iştirakçıları Zeynəb Əsmərlinin, Gözəlxanım Zeynalovanın çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

✍ **Səbuhi HƏSƏNOV**

## Şahbuz rayonu



Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Gününün bəhrələri ölkəmizin hər yerində olduğu kimi, Şahbuz rayonunda da öz möhtəşəmliyi ilə görünməkdədir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi siyasətinə dönmədən əməl olunması ilə Şahbuzun siması da günbəgün dəyişilmiş, rayonun hər bir yaşayış məntəqəsini əhatə edən quruculuq və tərəqqi dövrünə başlanılmışdır. İndi Şahbuzda hara baxsaq, onun ən ucqar yaşayış məntəqəsində belə, ulu öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu ən böyük sərvətin – müstəqilliyin və Milli Qurtuluşun bəhrələrini görərik. Şahbuzda həyata keçirilən hər quruculuq tədbiri, çəkilən hər yeni yol, abadlaşdırılan hər bir kənd məhz Heydər Əliyev siyasətinin bəhrəsidir. 25 minə yaxın əhalisi olan rayonda əldə edilən sosial-iqtisadi inkişaf, aparılan geniş quruculuq tədbirləri rayonun füsunkar təbii gözəlliklərinə əlavə naxışlar vurub və hazırda rayonda quruculuq tədbirləri davam etdirilir.

Ölkəmizdə keçirilən ümumxalq bayramı – Milli Qurtuluş Günü bu il Şahbuzda da təntənəli şəkildə qeyd edilmişdir. Bayram günü rayon mərkəzində geniş konsert proqramı ilə yaddaqalan olmuşdur. Konsert başlamazdan əvvəl bir neçə rayon sakini ilə görüşüb həmsöhbət olduq. Şahbuz şəhər sakinləri Sahib Hüseynov və Növrəstə Xudiyeva bildirdilər ki, Milli Qurtuluş Günü bütün Azərbaycan xalqı, bizim hamımız üçün müqəddəsdir. Çünki ötən əsrin 90-cı illərində ölkəmizin başının üstünü almış təhlükənin sovuşmasına, milli dövlətçiliyimizin xilas edilməsinə və bugünkü güclü Azərbaycan dövlətinin qurulmasına görə biz hamımız Milli Qurtuluş Gününə borcluyuq.

Milli Qurtuluş Günündə Şahbuzda keçirilən bayram şənliyində Azərbaycan Respublikasının Xalq artisti Mələkxanım Əyyubovanın, rayon Mədəniyyət Evinin “Batabat” ansamblının solistlərinin ifasında səslənən ulu öndərimiz Heydər Əliyevə, Milli Qurtuluşumuza, müstəqilliyimizə həsr olunmuş mahnılar böyük coşqu ilə qarşılanmışdır.

✍ **Əli CABBAROV**

## Sədərək rayonu



Sədərək rayonunda 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təşkil edilən konsert sərhəd bölgəsi sakinlərinin Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevə böyük sevgi və ehtiramın təntənəsinə çevrildi. Çünki Sədərək rayonunun yaradılması, bölgədə yaşayış massivlərinin salınması, inkişafı və tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bunu rayon sakinləri bir daha dilə gətirdilər. Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Kəmalə Əliyeva bildirdi ki, XX əsrin 90-cı illərinin əvvəllərində Sədərək Ermənistan tərəfindən hücumlara məruz qalıb. Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd bölgəsi olan, Naxçıvanın qala qapısı sayılan Sədərəkdə Azərbaycanın ərazi bütövlüyü uğrunda 1990-1993-cü illərdə ağır döyüşlər gedib. O zaman buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün qarşısının alınması üçün misilsiz xidmətlər göstərib, dünyanın diqqətini burada baş verən hadisələrə yönəldib.

“Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə Sədərək rayonunun erməni işğalından qorunması, bölgənin sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən Sədərək-Dilucu körpüsü tikilib, Türkiyənin həmsərhəd vilayətlərindən Sədərəyə elektrik xətti çəkilib. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf konsepsiyasını muxtar respublikamızda uğurla həyata keçirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimizin tövsiyələrinə uyğun olaraq bu bölgənin inkişafını diqqət mərkəzində saxlayıb, rayon mərkəzində və kəndlərdə kompleks quruculuq tədbirləri həyata keçirilib”, – bunları isə rayon ziyalısı Samil Kazımov deyir.

Sədərəklilər ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, məhz bu rayonun məhz Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Həmin gün Sədərəkdə təşkil olunan konsertdə səsləndirilən vətənpərvərlik musiqiləri sədərəklilərin əhval-ruhiyyəsini bütün dolğunluğu ilə təcəssüm etdirib.

**Sərxan İSMAYILOV**

Yeni nəşrlər

## Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə




Bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru Nazim Əhmədovun “Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə” adlı yeni monoqrafiyası işıq üzü görmüşdür. Bu kitab Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı”na əsasən nəşr edilmişdir. Monoqrafiyanın elmi redaktoru iqtisad elmləri doktoru, professor Bəyalı Ataşov, rəyçiləri iqtisad elmləri doktoru, professor Rasim Həsənov və iqtisad elmləri doktoru, professor Sabir Cümşüdovdur.

Monoqrafiyada Naxçıvan Muxtar Respublikasının yaranmasına qədərki dövrü əks etdirən Naxçıvanın iqtisadi tarixindən və Naxçıvan Muxtar Respublikasının inzibati ərazi bölgüsü, habelə 1924-1990-cı illərdə iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatı, sənaye, rabitə və nəqliyyat sahələri haqqında ümumi məlumat verilmiş və müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafı prosesləri hərtərəfli təhlil olunmuşdur.

Əsərdə muxtariyyət illərində Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafının ümumi xronikası verilmiş, region iqtisadiyyatının inkişafına təsir edən amillər, Naxçıvanın malik olduğu təbii sərvətlər, torpaq və əmək ehtiyatları, istehsal potensialı haqqında əsaslandırılmış elmi təhlillər yer almışdır. Naxçıvanda 1924-1969-cu illər arasında və ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci hakimiyyəti dövründə Naxçıvanda sənayenin və kənd təsərrüfatının inkişafı məsələlərinə geniş yer verilmişdir.

Monoqrafiyada xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində işlədiyi dövrdə muxtar respublikada iqtisadiyyatın inkişafı, özəl sektorun yaradılması, kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirdiyi ilk aqrar islahatların mahiyyəti açılmışdır. Həmçinin monoqrafiyada ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş vermiş iqtisadi böhrandan çıxış yolları məsələləri, 1996-2003-cü illəri əhatə edən makroiqtisadi sabitliyin əldə olunması və muxtar respublikada dinamik inkişaf proseslərinin başlanması mərhələsi araşdırılmışdır. Bu mərhələdə Naxçıvan Muxtar Respublikasının ərzaq və enerji təhlükəsizliyinin təmin olunması, muxtar respublikanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilərək onun ixrac potensialının artırılması sahəsində həyata keçirilmiş mühüm iqtisadi layihələr haqqında oxuculara geniş məlumat verilmişdir. Kitabda 1995-ci ildən sonrakı dövrdə Naxçıvanda başlanmış yeni intibah mərhələsi elmi təhlilə cəlb olunmuşdur. Monoqrafiyada iqtisadi inkişafda Naxçıvan möcüzəsinin yaradılması, blokadada olan bir regionda idxaldan asılılığın aradan qaldırılaraq ixracyönümlü iqtisadi inkişafın təmin olunması, qədim İpək Yolu marşrutu üzərində Naxçıvanın imkanlarından hərtərəfli istifadə olunması məsələləri geniş əks olunmuşdur.

Kitab nəfis şəkildə çap olunaraq Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında mühüm rol oynayan sənaye müəssisələrinin, enerji və yol infrastrukturunun, tikilmiş yeni inzibati binaların, su anbarlarının və digər yeni yaradılmış obyektlərin fotoşəkilləri verilmişdir.

Xatırladaq ki, professor Nazim Əhmədov, ümumilikdə, 250-yə yaxın elmi əsərin, o cümlədən 30-a yaxın dərs vəsaiti, monoqrafiya və kitabın müəllifidir. Alimin elmi məqalələri bir çox ölkələrdə – Türkiyə, Ukrayna, ABŞ, Rusiya, İran və Moldovada çap olunmuşdur.

**Əli CABBAROV**

## Əhalinin hər bir təbəqəsi keyfiyyətli tibbi xidmətlə əhatə olunub

***Səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsi, əhalinin hər bir təbəqəsinin keyfiyyətli tibbi xidmətlə əhatə olunması bu ilin may ayında da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir.***

Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə, Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi və Qlobal Fond tərəfindən Naxçıvan QİÇS-lə Mübarizə Mərkəzinə dərman preparatları, ehtiyac olan miqdarda reaktivlər və tibbi materiallar, HİV ekspres testlər, dezinfeksiyaedicilər, hepatit B və C testləri gətirilmişdir.

Obliqat qruplarının tibbi müayinələrinin gücləndirilməsi məqsədilə QİÇS-lə Mübarizə Mərkəzi, Dəri-Zöhrəvi Dispanseri, Ağciyər Xəstəlikləri Dispanserinin həkim, laborant və radioloqdan ibarət səyyar briqadası təşkil olunmuşdur. Briqada may ayı ərzində Şərur, Culfa, Ordubad və Babək Rayon Mərkəzi xəstəxanalarında olmuş, tibb işçilərinin, ictimai iaşə, gözəllik salonu işçilərinin müayinələri yerində aparılmışdır. 1046 nəfərdən qan götürülmüş, hepatit B və C, QİÇS və digər xəstəliklərə görə müayinələr aparılmış, 647 nəfər flüoroqrafiya müayinəsindən keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən may ayı ərzində Ordubad rayonunun 7 kəndində təhsil müəssisələrində işləyən 175 qadında süd vəzinin profilaktik müayinəsi aparılmış, 6 nəfərdə patologiya aşkar edilərək onlar Onkoloji Mərkəzə dəvət olunmuşlar.

Təhsil müəssisələrində şagirdlərin kütləvi müayinəsi aparılmış, may ayı daxil olmaqla mövsüm ərzində 31696 nəfər müayinədən keçirilmiş, 3018 nəfər dispanser qeydiyyatına alınmışdır.

Həkimlərin peşə bacarıqlarının yüksəldilməsi məqsədilə ay ərzində 3 nəfər həkim Bakı şəhərinə, 2 nəfər həkim Moskva şəhərinə müxtəlif müddətə kurs keçmələri üçün göndərilmişdir.

Diaqnostika-Müalicə Mərkəzində talassemiyalı xəstələr üçün qanvermə aksiyası keçirilmiş, 18 nəfərdən 5,4 litr qan tədarük edilmişdir.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahi əməliyyatlarının təşkili davam etdirilmiş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin heyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə 23 nəfərdə açıq ürək əməliyyatı, 1 nəfərdə aşağı ətrafın amputasiyası həyata keçirmiş, 30 nəfərdə müayinələr aparmışdır.

Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 25 nəfərdə müayinə, 17 nəfərdə əməliyyat yerinə yetirilmişdir.

Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının 22 nəfərdən ibarət professor-həkim heyəti Ordubad Rayon Mərkəzi Xəstəxanasında əhalinin kütləvi müayinə və müalicəsini həyata keçirmiş, 2478 nəfər müayinə edilmiş, 84 nəfərdə cərrahi əməliyyat aparılmışdır.

Türkiyə Əməkdaşlıq və Koordinasiya Mərkəzinin Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində “Xoş gəldin, körpə” ana-uşaq sağlamlığını dəstəkləmə layihəsi çərçivəsində mama və neonatoloqların iştirakı ilə 4 günlük seminar-treninq, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası “Bioloji təbabət və antihomotoksik terapiya cəmiyyəti”nin təşkilatçılığı ilə rayonlarda “Bioloji təbabətin aktual problemləri” mövzusunda birhəftəlik elmi-praktik seminarlar keçirilmişdir.

Rayon və kənd tibb müəssisələrinin fəaliyyətinə nəzarət məqsədilə may ayında Culfa və Ordubad Rayon Mərkəzi xəstəxanalarına, Dəstə, Sabirkənd, Biləv, Yaycı, Qaraçuq, Tumbul, Qızıl Qışlaq, Kükü həkim ambulatoriyalarına, Darıdağ Arsenli Su Müalicəxanasına, Behrud, Parağa, Qaraxanbəyli, Bulqan, Ayrınc, Güney Qışlaq feldşer-mama məntəqələrinə gedilmiş, mövcud nöqsanların yerindəcə həll olunması üçün tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikasının müdafiəsi zamanı əlil olmuş vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə aparılan dispanserizasiya tədbirləri başa çatmışdır.

40-45 yaşlıların dispanserizasiyasına başlanılmış, ay ərzində 2814 nəfər müayinədən keçirilmiş, 295 nəfərdə xəstəlik aşkar olunaraq dispanser qeydiyyatına götürülmüşdür.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə may ayı ərzində muxtar respublika üzrə 11 nəfər Bakı şəhərinin Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 26 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 19 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Bu günlərdə Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində keçirilən solo konsertdə 17 yaşlı gənc qızın fortepianoda müxtəlif bəstəkarların əsərlərini peşəkarlıqla səsləndirməsi və yüksək səhnə mədəniyyəti nümayiş etdirməsi tamaşaçıları heyran qoydu.***

Gənc istedadlarımız

## İstedadlı gənclərə göstərilən qayğı öz bəhrəsini verir



Bu gənc qız sanki bir imtahan, sınaq qarşısında idi. Solo konsertlə gənc istedadımız zəhmət, məsuliyyət adlı körpüdən uğurla keçərək tamaşaçı ilə öz arasında canlı körpü yaratdı. Tamaşaçı alqışları onu daha ruhlandırdı, daha böyük uğurlar qazanmağa sövq etdi. Bu gənc istedadı oxucularımızla yaxından tanış etmək üçün onu redaksiyamıza dəvət etdik. Öyrəndik ki, həssas və gözəl musiqi duyumu və qavrayışı hələ onda uşaq yaşlarından özünü büruzə verib. Valideynləri onun musiqi həvəsinin keçici olduğunu zənn edirdilər. Ancaq Rövşanə İsmayılxanlı böyüdükcə musiqiyə olan həvəs də onunla bərabər böyüyürdü. Bu həvəs Rövşanəni 2007-ci ildə Naxçıvan şəhər 2 nömrəli Uşaq musiqi məktəbinə gətirib çıxarır. O, burada musiqi sənətinin ilkin sirlərinə yiyələnir.

Musiqi təhsili prosesinin yüksək səviyyəyə çatmasında müsabiqələrin və baxışların keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir; belə yarışlarda iştirak edənlərə rəqabət hissi aşılanır, əsl sənət mübarizəsi onların ifaçılıq səviyyəsinin yüksəlməsinə, daxilən zənginləşməsinə səbəb olur. Rövşanə də təhsil almaqla yanaşı, keçirilən müsabiqələrdə tez-tez çıxışlar edir.

Onun ilk uğuru 2009-cu ildə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri arasında keçirilən müsabiqədə olub. Həmin müsabiqədə II dərəcəli diploma layiq görülüb. Bu uğuru Rövşanə növbəti illərdə də təkrarlayıb.

2012-ci ildə Bakı şəhərində keçirilən gənc pianoçuların II respublika müsabiqəsində tərifnaməyə layiq görülüb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin arasında keçirilən müsabiqədə I dərəcəli diploma təltif olunub. Rövşanənin belə uğurları çoxdur.

Ümumiyyətlə, hər bir gəncin istedadlı musiqiçi kimi yetişməsində müəllimin rolu danılmazdır. Şübhəsiz ki, Rövşanənin müvəffəqiyyətinin mühüm bir hissəsi onun müəllimləri Natəvan Qədimova və Solmaz Axundovanın payına düşür.

Rövşanə İsmayılxanlı ilə Milli Qurtuluş Günü ərəfəsində görüşmüşdük. O, söhbətimizə Milli Qurtuluş Günü ilə başladı. Dedi ki, biz gənclər 15 iyunun yaşıdlarıyıq. Biz o dövrün ağrı-acılarını görməmişik. Ancaq valideynlərim, demək olar ki, hər gün 1990-1993-cü illərin çətinliklərindən danışır, bugünkü xoş günlərimiz üçün ulu öndər Heydər Əliyevə borclu olduğumuzu bildirirlər. Biz gənclər də artıq dərk edirik ki, əgər Milli Qurtuluş Günü olmasaydı, bu gün müstəqil ölkəmiz də olmayacaqdı və mənim kimi gənclər azad bir ölkənin vətəndaşı olaraq belə mükəmməl təhsil almayacaqdı, müasir bir mərkəzdə konsert proqramı ilə çıxış etməyəcəkdi.

Rövşanə daha sonra gənclərə muxtar respublikamızda göstərilən qayğıdan danışdı:

– Mən bu sənətlə məşğul olmağa başlayandan görmüşəm ki, istedadlı gənclər daim diqqət mərkəzindədirlər. Onların istedadının üzə çıxarılması və düzgün istiqamətləndirilməsinə ciddi önəm verilir. Mən bunu öz timsalımda da görürəm. Ona görə də musiqi təhsili aldığım uşaq musiqi məktəbində yaradılan şəraitdən ruhlanıb bu sahədə inamlı addımlar atmağa çalışmışam. Keçirilən müsabiqələr də biz gənclərin musiqiçi kimi yetişməyimizə böyük təkan verir. Hər dəfə səhnəyə çıxanda insanların alqışları məni çox sevindirir. Solo konsertimin təşkil olunması mənim həyatımın dönüş nöqtəsi oldu. İlk dəfə idi ki, belə böyük konsertlə tamaşaçılar qarşısında çıxış edirdim.

Söhbətimizin sonunda Rövşanə gələcək planları ilə də bizi tanış etdi:

– Bu il Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdən məzun oldum. Ən böyük arzum ali təhsil almaqdır. Bunun üçün də var qüvvəmlə çalışıram. İstəyirəm ki, ali təhsil alıb gələcəkdə uşaqlara və yeniyetmələrə Azərbaycanın zəngin mədəniyyətinin və yüksək yaradıcı gücünün göstəricisi olan muğamlarımızın incəliklərini öyrədim.

Püxtələşməyə doğru can atan gənc musiqiçi Rövşanə həm də mahnılar bəstələyir. Gənc ifaçının məqsədi hərtərəfli və professional musiqiçi kimi yetişməkdir. İnanırıq ki, gənc musiqiçinin arxada qalan illərdə açdığı yaradıcılıq cığırı onu sənət zirvələrinə aparan yola qovuşduracaq.

**Sara ƏZİMOVA**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 459